# BEYNƏLXALQ AVRASİYA MƏTBUAT FONDU (BAMF)

## 7 fevral 2024-cü ildə keçirilmiş Azərbaycan Respublikası Prezidentinin növbədənkənar seçkilərində BAMF-ın Müşahidəçilik fəaliyyətinin

# HESABATI

FEVRAL 2024

## Ümumi məlumat



2024-cü il fevralın 7-də Azərbaycanda növbədənkənar Prezident seçkiləri keçirildi. Bu seçki Azərbaycanın müstəqillik tarixində ilk dəfə olaraq bütün ölkə ərazisində keçirildiyi üçün mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasında prezident idarəetmə sistemi mövcuddur və Azərbaycanda Prezident seçkiləri Konstitusiya və Seçki Məcəlləsi ilə tənzimlənir. Prezident vətəndaşların səsvermədə iştirakı ilə 7 il müddətinə (2016-cı ildə keçirilmiş referenduma əsasən) seçilir. Ən son konstitusiya düzəlişləri prezident tərəfindən təklif olunmuş və 2016-cı ildə keçirilmiş referendum ilə qəbul edilmişdir. Konstitusiyada əsas hüquqlar və azadlıqlar, o cümlədən toplaşma, ifadə, birləşmə və informasiya əldə etmək azadlığı, eləcə də siyasi həyatda iştirak etmək hüququ təmin olunur. Azərbaycan demokratik seçkilərin keçirilməsi ilə əlaqədar əsas beynəlxalq və regional sənədlərin iştirakçısıdır.

## BAMF və müşahidəçilik fəaliyyəti

Beynəlxalq Avrasiya Mətbuat Fondu (BAMF) 1992-ci ildə Azərbaycanda dövlət qeydiyyatına alınmış, BMT-nin İqtisadi Sosial Şurasının (ECOSOC) QHT bölməsinin Əsas məşvərətçi statuslu üzvü olan müstəqil, beynəlxalq qeyri-hökumət təşkilatıdır. BAMF-ın 30 ildən artıq fəaliyyətinin əsas hissəsi müharibədən zərərçəkmiş və işğaldan azad olunmuş regionlarda sosial-humanitar layihələrin icrası, orada yaşayan qaçqın və məcburi köçkünlərin diqqətdə saxlanılması, xarici diplomatların, jurnalistlərin, tələbələrin səfərlərinin təşkili və s. olmuşdur. Təşkilat öz statusundan istifadə edərək mütəmadi olaraq münaqişə zonalarından obyektiv və operativ informasiyalar paylaşaraq BMT-nin Cenevrə, Nyu York, Vyana ofislərində, beynəlxalq auditoriyalarda silsilə tədbirlər, paralel sessiyalar keçirir, bəyanatlar yayımlayır və yeni əməkdaşlıqlara imza atır. BAMF media və vətəndaş cəmiyyətinin inkişafı, sülhməramlı aksiyalar, qaçqın və məcburi köçkünlərin məsələləri, humanitar və o cümlədən təhsil istiqamətlərində çoxsaylı, ölkə əhəmiyyətli layihələrin təşəbbüskarı və icraçısı olmuşdur. BAMF 2008 və 2013-cü illərdə Seçki koalisayalarının yaradılmasında birbaşa iştirak edən və seçki prosesində çoxillik təcrübəyə malik olan müstəqil təşkilatdır.

Beynəlxalq Avrasiya Mətbuat Fondunun Himayəçilik şurasının 2024-cü il 7 yanvar tarixində ötən ilin yekunları və cari il üçün fəaliyyət planı ilə bağlı ilk iclası keçirilib. İclasda müzakirələr nəticəsində 7 fevral 2024-cü il tarixində keçiriləcək növbədənkənar prezident seçkilərində BAMF-ın 50 nəfər müşahidəçi heyəti ilə təmsil olunması ilə bağlı qərar qəbul olunub. Daha öncədən də keçirilən seçkilərdə öz zəngin seçki təcrübəsi və kadr bazası ilə iştirak edən BAMF növbədənkənar prezident seçkilərinə də müşahidəçi komandası ilə birlikdə aktiv şəkildə qoşulub. Təşkilatın əsas hədəf və missiyası seçkilərdə obyektiv və operativ fəaliyyət aparmaq və seçki prosesinə dair əhatəli hesabat hazırlamaqdır.

2024-cü il yanvarın 10-da BAMF Azərbaycan Respublikası Seçki məcəlləsinin 1.1.19-cu bəndinə (müşahidəçi — seçkilərin (referendumun) keçirilməsi zamanı seçkiləri (referendumu) müşahidə etmək üçün siyasi partiyalar, qeyri-hökumət təşkilatları, referendum üzrə təşviqat qrupları, namizədlər tərəfindən təyin edilən və bu Məcəllə ilə nəzərdə tutulmuş qaydada müvafiq seçki (referendum) komissiyasında qeydə alınmış şəxs) əsasən rəsmi qaydada Mərkəzi Seçki Komissiyasına (MSK) müraciət etmiş və 50 nəfərlik müşahidəçi heyətinin siyahısını təqdim etmişdir. BAMF-ın müraciətinə MSK tərəfindən baxılmış və təşkilatın seçkilərdə bütün Azərbaycan ərazisində müşahidəçi kimi iştirakı qeyd olunan say tərkibi ilə təsdiqlənmişdir. Həmçinin, təqdim olunan siyahıya əsasən BAMF-ın müşahidəçi heyətinin 23 fərqli şəhərdə ümumilikdə 30-dan çox dairə daxilində fəaliyyət göstərməsi nəzərdə tutulmuşdur. Yanvarın 19-da BAMF-ın baş ofisində təşkilat rəhbərliyinin və 21 nəfər müşahidəçinin iştirakı ilə iclas keçirilmiş və müşahidəçilərə MSK tərəfindən təsdiqlənən vəsiqələri təqdim edilmişdir. Bundan əlavə Mərkəzi Seçki Komissiyası (MSK) tərəfindən hazırlanan “Müşahidəçilər üçün Yaddaş” kitabında qeyd edilən hüquq və vəzifləri haqqında geniş məlumat verilib. Yaddaş kitabçası Seçki Məcəlləsinin müddəaları və Mərkəzi Seçki Komissiyasının təsdiq etdiyi təlimat, izah, qayda və digər normativ xarakterli sənədlər əsasında tərtib olunub. Nəşrdə seçkilərə dair bir sıra əsas anlayışların izahı verilib, müşahidə aparılmasının prinsipləri əks olunub, habelə müşahidəçilərin hüquq və vəzifələri aydın şəkildə göstərilib. Həmçinin, regiondan olan müşahidəçilərlə görüşlər keçirilmiş, onlar üçün təlimlər təşkil olunmuşdur.



## Mövcud siyasi vəziyyət



7 fevral 2024-cü il növbədənkənar Prezident seçkiləri qərarı Prezident İlham Əliyev tərəfindən 7 dekabr 2023-cü il tarixində verilib. Regionda Azərbaycana qarşı olan siyasi yanaşmanı dəyişən Prezident İlham Əliyevin Qarabağda qazandığı qələbədən sonra Azərbaycan xalqı onun qərarlarına daha çox güvənməyə başlayıb. Bu səbəbdən əhalinin əksəriyyəti seçkilərin keçirilməsində hər hansı bir problem olduğunu düşünmür.

Əvvəlki illərdə keçirilən prezident seçkilərində bir neçə müxalif partiyanın namizədləri iştirak edir və demokratik mühitin formalaşması baxımından təzyiqin yüksəlməsinə səbəb olurdular. Onlar ölkədə prezident dəyişikliyinə əsas arqument kimi Qarabağ probleminin həll olmamasını qeyd edirdilər. Görünən odur ki, bu ilki seçki kampaniyalarında bu tipli ifadələr səslənmir. Seçkilərdə ölkənin bir neçə müxalifət partiyaları Azərbaycan Xalq Cəbhəsi Partiyası, Müsavat Partiyası, Milli-İstiqlal Partiyası və Respublikaçı Alternativ Partiyası (REAL) müxtəlif səbəblərdən seçkilərdə iştirak etməmək qərarına gəlib. Onlardan Azərbaycan Xalq Cəbhəsi Partiyası isə ümumiyyətlə seçkiləri boykot etməyə və iştirak etməməyə çağırıb. Buna səbəb kimi isə ölkədə seçki kampaniyası üçün demokratik şəraitin olmaması və seçkilərə hazırlıq üçün çox az bir vaxtın qaldığı bildirilib.

## Seçki öncəsi hazırlıqlar

Azərbaycan Respublikası Prezidenti seçkiləri Mərkəzi Seçki Komissiyası (MSK) tərəfindən keçirilir. Seçki prosesinin ən vacib məqamlarından biri də obyektiv, operativ və şəffaf təşkilatçılıqdır. Bu ilki növbədənkənar prezident seçkiləri MSK-nın təşkilatçılığı ilə 125 Dairə Seçki Komissiyası (DSK) və 6319 Məntəqə Seçki Komissiyası (MnSK) tərəfindən idarə olunur. Mərkəzi Seçki Komissiyası hər seçkidə olduğu kimi bu seçkilərdə də intensiv hazırlıq işlərini davam etdirib. MSK dairələrdə və məntəqələrdə yüksək səviyyədə şərait yaratmış və seçicilərin rahatlığını düşünmüşdür. Ancaq, narahatedici və düzəldilməli olan bir sıra məqamlar da vardır. Xüsusilə, seçkilərə qədər proseslərlə bağlı bəzi vacib statistikaların, məlumatların əlçatanlığı istənilən səviyyədə olmayıb. MSK-nın saytında bəzi seçicilərin adlarının siyahıda çıxmaması da qeyd olunmalı olan əsas məqamlardan biridir.

Seçkilərə hazırlıqda xüsusi vurğulanmalı və Azərbaycan üçün əhəmiyyətli olan yenilik isə ilk dəfə olaraq seçkilərin işğaldan azad olunmuş ərazilərdə keçirilməsidir. Bununla əlaqədar Qarabağ bölgəsində 26 seçki məntəqəsi yaradılmışdır ki, buraya 19-20 sentyabr 2023-cü il əməliyyatlarında Azərbaycanın nəzarətinə keçən Xankəndi şəhərində yerləşən 14 saylı seçki məntəqəsi də daxildir.

## Namizədlər və təşviqat kampaniyaları

Növbədənkənar prezident seçkilərində real rəqabət mühiti yaradılsa da, İlham Əliyevin üstünlüyü açıq-aşkar hiss olunurdu. Xatırladaq ki, 2008 və 2018-ci il seçkilərində də Azərbaycanda analoji vəziyyət yaşanıb. Həmin seçkilərdə də bəzi müxalif partiyaların namizədləri seçkilərdə iştirak etməyib və seçkilərdən kənarda qalmağı qərara alıblar. Ancaq bu il keçirilən seçkilər ilə həmin seçkilər arasında əsas fərqli məqam ondadır ki, 2024-cü il seçkilərində əsas namizəd və hazırkı Prezident İlham Əliyevin tərəfdarları öncəki illərdən qat-qat çoxdur.



Namizədlərin təbliğat-təşviqat kampaniyası rəsmi olaraq 2024-cü il yanvarın 15-də başlayıb. Onların plakatları vahid qaydada MSK tərəfindən təyin edilmiş bilbordlara - lövhələrə vurulmuşdur. Araşdırmalar göstərir ki, namizədlər daha çox onlara verilən efir vaxtlarında aktiv olublar və insanlarla görüşlərdə istənilən səviyyədə iştirak etməyiblər. Burada əsas faktor isə vətəndaşların hazırki prezidentdən razı olmaları və digər namizədlərin fəaliyyətlərini uyğun bilməmələridir. Buna misal olaraq, seçkilərdə exit-poll təşkil edən ABŞ-ın "Oracle Advisory Group" təşkilatının keçirdiyi sorğunu qeyd etmək olar. Seçkidən öncə keçirilən sorğunun nəticələrinə əsasən vətəndaşların 85%-i hazırki prezidentdən məmnun olub və onların 97%-i yenidən öz səsini İlham Əliyevə verəcəyini bildirib.

## Yerli və beynəlxalq müşahidəçilər

Azərbaycan Respublikası Seçki Məcəlləsi seçkilərdə vətəndaş və beynəlxalq seçki müşahidəsinin keçirilməsini nəzərdə tutur. Bundan əlavə, hər bir namizəd seçki prosesində öz səlahiyyətli nümayəndələrini və müşahidəçilərini təyin edə bilər. Seçki məcəlləsinin 1.1.19-cu müşahidəçilik haqqında olan bəndə əsasən yerli müşahidəçilər fərdi və ya qeydiyyatdan keçmiş namizəd, partiya və ya QHT nümayəndəsi kimi qeydiyyata alınırlar. MSK-nın rəsmi məlumatına görə 65 mindən çox müşahidəçi qeydiyyata alınıb. Onlardan 800-dən çoxu beynəlxalq müşahidəçilərdir. Daha bir vacib məqam isə növbədənkənar Prezident seçkilərində QHT-lərin fəal şəkildə

təşkilatlanması və koalisiyalarda birləşməsi idi. Sosial mediada və internet resurslarında yayılmış informasiyalar əsasında toplanan məlumatların təhlili göstərir ki, seçkiləri monitorinq etmək üçün QHT-lərin 3 koalisiyası elan olunub və ümumilikdə 83 QHT-dən 7000-dən çox nümayəndə müşahidəçi kimi fəaliyyət göstərib.

Yerli təşkilatlar və fərdlərlə yanaşı seçkiləri beynəlxalq platformaların üzvləri də müşahidə edib. ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu, ATƏT-in Parlament Assambleyası, MDB Parlament Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı (İƏT), ABŞ və Böyük Britaniya səfirliyi, Türk Dövlətləri Təşkilatı və digər beynəlxalq təşkilatların nümayəndələri seçkiləri müşahidə edəcəklərini seçkidən öncə bildiriblər.

## BAMF-ın ATƏT missiyası ilə görüşləri

Azərbaycanda seçkilərdə müşahidəçilik missiyasını yerinə yetirən ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun (DTİHB) nümayəndələri, uzun müddətli müşahidəçiləri Noemi Arcidiakono və Oljas Akanov BAMF-ın baş ofisinin qonağı olublar. Çox təəssüf ki, görüş gözlənilən peşəkarlıq standartlarına cavab verməyib. Uyğunsuz dialoq və əlaqəsiz suallar əməkdaşlığa dair ilkin ümidlərə baxmayaraq, iki komanda arasında effektiv ünsiyyət və əməkdaşlığa mane olan bir sıra məsələlər ortaya çıxarıb. Sanki həmin müşahidəçilər üçün seçki öncədən yekunlaşmış, nəticəsi və icra prosesi bəlli olan, formal tədbir xarakteri daşıyırdı. Bu isə birbaşa olaraq çox yanlış və qəbuledilməz bir haldır.

ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun (DTİHB) digər iki uzunmüddətli müşahidəçiləri Elia Varela-Serra və Yurgen Şpeydel isə BAMF-ın Tərtər regional ofisinin qonağı olublar. Bakı ofisində keçirilən görüşdən fərqli olaraq bu görüş pozitiv xarakter daşıyıb.

## Seçki günü – 7 fevral 2024

- 7 fevral saat 08:00-dan etibarən məntəqələrin açılması ilə bütün ölkə ərazisində seçki prosesi başladı. Ölkə üzrə 6 milyon 478 min 623 seçicinin seçkidə iştirak hüququ var idi.

- Beynəlxalq Avrasiya Mətbuat Fondunun 50 nəfərlik müşahidəçi komandası baş ofis Bakıdan və Tərtər, Füzuli, Beyləqan regional qərargahlarından idarə olunmaqla müşahidəçilik fəaliyyətlərinə başladılar.

- Bütün müşahidəçi heyət üzvləri ümumilikdə 22 fərqli dairə olmaqla 38 məntəqənin açılışında iştirak etdilər.

- BAMF-ın 50 nəfərlik müşahidəçi heyətinin 10 nəfəri işğaldan azad olunmuş ərazilərdə – Xankəndi, Şuşa, Laçın, Xocalı, Ağdərə, Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarında müşahidəçilik missiyasını yerinə yetiriblər. Onlar həmin rayonlarda 7 dairə olmaqla 19 məntəqədə olublar.

- Paytaxt Bakıya təhkim olunan müşahidəçilər 10 dairədə, regionlardakı müşahidəçilər isə isə 14 dairədə (işğaldan azad olunan ərazilərdəki dairələr istisna olmaqla) fəaliyyət göstəriblər.

- BAMF-ın müşahidəçilik komandası ümumilikdə ölkə üzrə 32 dairə olmaqla 225 məntəqədə müşahidəçilik missiyasını icra edib.

- Müşahidəçilər seçki günü gün sonuna qədər prosesləri izləmiş və məntəqlər üzrə qeydlərini aparmışlar.

- 7 fevral saat 19:00-da seçki prosesi yekunlaşmış və bütün məntəqələrdə qutuların açılmasına başlanılmışdır.

## Nəticələr

BAMF-ın müşahidəçilik komandasının növbədənkənar prezident seçkilərində rastlaşdığı və müşahidə etdiyi seçki prosesi ilə bağlı yekun qeydləri:

1. Əvvəlki seçkilərdən fərqli olaraq seçicilərin aktivliyi nəzərəçarpacaq dərəcədə yüksək olmuşdur. İlk dəqiqələrdən etibarən açılışında iştirak etdiyimiz və müşahidə apardığımız 38 məntəqənin hər birində izdiham müşahidə olunmuşdur. Səhər saatlarından başlayan bu izdiham ən az 2-2.5 saat müddətində davam edib. Hətta bəzi məntəqələrdə seçicilərin sıxlığı 5-6 saatdan çox davam etmişdir. Məntəqələr üzrə qeydiyyatda olan seçici sayı statistikası üzrə seçkidə iştirak edənlərin sayı seçkilərin sonuna doğru artımışdır. Müşahidələr onu göstərir ki, əksər məntəqələrdə 85-90%-ə qədər seçici fəallığı izlənilmişdir. Xüsusilə, məcburi köçkün qəsəbələrində və işğaldan azad olunmuş ərazilərdə yerləşən məntəqələrdə müşahidə olunan seçici fəallığı özünü göstərmiş və müşahidəçilərin qeydləri arasında öz əksini tapmışdır.

2. Müşahidəçilərimizin qeydlərinə əsasən seçki prosesi son dərəcə şəffaf və obyektiv şəkildə keçirilmişdir. Həm müşahidəçilərin, həm də medianın fəaliyyətinə lazımi şərait yaradılmış və hər şey göz önündə olmuşdur. Məntəqələrin açılışı, seçkinin yekunlaşması və səslərin hesablanması prosesləri müşahidəçilər tərəfindən rahatlıqla

izlənilmişdir. 4 məntəqədə müşahidəçilərin seçki prosesindən fotoçəkiliş etmələrinə etiraz olunmuş və icazə verilməmişdir.Yalnız bir məntəqədə müşahidəçilər üçün ayrılan yerlər seçki qutuları və səsvermə prosesindən xeyli aralıda yerləşmişdir.

3. Seçki prosesi zamanı seçkilərin nəticələrinə təsir edəcək heç bir qayda pozuntusu aşkarlanmamışdır. Seçkilər son dərəcə ədalətli təşkil olunmuş və əvvəlki seçkilərdən fərqli olaraq seçki pozuntuları minimum səviyyədə olmuşdur. Müşahidəçilərin qeydlərinə əsasən yalnız kiçik və seçki prosesinə təsir etməyən yanlışlıqlara yol verilmişdir.

4. Müşahidəçilərin qeydlərinə əsasən bəzi məntəqələrdə işçilərin hazırlığının istənilən səviyyədə olmaması proseslərin ləngiməsinə və sıxlıq yaranmasına səbəb olub. Həmçinin, səsvermə kabinələrin sayının kifayət qədər olmasına baxmayaraq məntəqlərdə seçicilərin qeydiyyatı 1 və ya 2 məntəqə işçisi tərəfindən aparıldığına görə sünii sıxlıq yaranmışdır. Düşünürük ki, məntəqə işçiləri üçün keçirilən təlimlərin sayının artırılması bu problemin həllinə mühüm dəstək ola bilər.

5. Seçkinin ilk dəqiqələrindən etibarən seçicilər arasında əsasən qadınların və yaşlı təbəqənin fəal iştirakı müşahidə olunmuşdur. Müşahidəçilərimizin qeydlərinə əsasən seçici iştirakçılığında ən çox orta yaşlı xanımlar fərqlənmişdir.

6. Seçkilərdən öncə Mərkəzi Seçki Komissiyası tərəfindən 1000 məntəqədə kameraların quraşdırılması yüksək qiymətləndirilir. Ancaq, bu tip müşahidə kameralarının bütün məntəqələrdə quraşdırılması seçki şəffaflığına daha da müsbət təsir edə və öz effektivliyini göstərə bilər.

7. Müşahidəçilərimiz tərəfindən ümumi olaraq Mərkəzi Seçki Komissiyasının fəaliyyəti, seçki hazırlığı və təşkilatçılığı yüksək qiymətləndirilir. Xüsusən, qanun pozuntularının əvvəlki illərə nisbətən minimuma endirilməsi əsas qeyd olunmalı məqamlardandır.

Beləliklə, apardığımız müşahidə və təhlillər onu deməyə əsas verir ki, 7 fevral seçkiləri azad, ədalətli və şəffaf şəkildə keçirilib, Azərbaycan xalqının iradəsini əks etdirib və mövqeyini nümayiş etdirib.